# Hayların insanlıq cinayətlərinin izləri açılır

## Ağdamda daha bir kütləvi məzarlığın tapılması vəhşi erməni xislətini bariz təcəssüm etdirir

**Şanlı zəfərimizdən sonra vəhşi, barbar hayların tarixən Azərbaycan xalqının başına gətirdiyi müsibətlərin izləri açılmaqda davam edir.**

Dünya şahidlik edir ki, ermənilər Birinci Qarabağ müharibəsi zamanı da vandallıqları ilə yanaşı, insanlıq cinayətləri törətməkdən də çəkinməyiblər. Xüsusən 1988-ci ildən Qarabağda işğalçılıq siyasəti yürüdən ermənilər dinc əhaliyə qarşı amansız davranaraq günahsız, əliyalın insanları vəhşiliklə qətlə yetiriblər. Xocalı soyqırımı, Ağdaban faciəsi, Ballıqaya qətliamı və Başlıbel faciəsi zamanı dinc əhaliyə qarşı qırğın törədən ermənilər vəhşiliklərini, insanlığa sığmayan hərəkətlərini meyitləri kütləvi şəkildə basdırmaqlarında da göstəriblər.

6

# Hayların insanlıq cinayətlərinin izləri açılır

## Ağdamda daha bir kütləvi məzarlığın tapılması vəhşi erməni xislətini bariz təcəssüm etdirir

*Əvvəli 1-ci səh.*

Birinci Qarabağ müharibəsindən bu günədək itkin düşmüş 4 minə yaxın vətəndaşımızın taleyindən hələ də xəbər yoxdur. Təbii ki, müharibə cinayətləri törətmiş Ermənistan bu illər ərzində həmin şəxslər barəsində heç bir məlumat təqdim etməyib.

Yalnız 2020-ci ilin payızında 44 gün davam edən İkinci Qarabağ müharibəsindəki şanlı zəfərimizdən sonra işğaldan azad olunmuş ərazilərimizdə aparılan qazıntı işləri zamanı onların vandallıqla, vəhşiliklə həyata keçirdikləri cinayətlərin izləri bir-bir ortaya çıxır. Ermənilər müharibə cinayətlərini daim örtbasdır etməyə çalışsalar da, tarix silinmir, onların törətdikləri bütün cinayətlərin üstü zamanla açılır.

2020-ci ildə 44 günlük savaşdan qalib ayrılan Azərbaycan üçtərəfli birgə Bəyanatdan dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işlərinə başladı. Elə ilk dövrdə daşı daş üstündə qalmayan şəhər və kəndlərimizin vəziyyəti erməni vəhşiliyindən, barbarlığından aydın şəkildə xəbər verirdi. İşğaldan azad olunmuş rayonlarımızda quruculuq işləri ilə bağlı aparılan qazıntılar zamanı ermənilərin insanlıq cinayətlərinin izləri daha da açıldı. Müxtəlif rayonlarda kütləvi məzarlıqlar aşkarlandı.

İkinci Qarabağ müharibəsindən sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Birinci Qarabağ müharibəsində itkin düşmüş insanlara aid məzar yerlərinin müəyyənləşdirilməsi və ekshumasiyası işlərinə başladı.

Baş Prokurorluq tərəfindən aparılan istintaq hərəkətləri nəticəsində 2021-ci ilin aprel ayında Kəlbəcərin Başlıbel kəndində 12 nəfərin meyitlərinin qalıqları tapıldı.





Bundan başqa, Birinci Qarabağ müharibəsi zamanı əsir-girovluqda olmuş şəxslərin ifadələrinə əsasən, Kəlbəcərin Zallar, Xocavəndin Edilli, Ərəkül kəndlərində və Füzuli şəhəri ərazisində də kütləvi məzarlıqlar tapılıb.

Ötən ilin mart ayında isə Birinci Qarabağ müharibəsi zamanı şiddətli döyüşlərin getdiyi ərazilərdən olan Xocalı rayonunun Fərrux yüksəkliyində həmin döyüşlərdə iştirak etmiş hərbçilərimizə aid olduğu ehtimal edilən bir neçə meyit qalıqları aşkarlanıb.

### İşğaldan azad olunmuş ərazilərdə 8-ci kütləvi məzarlıq

Aparılan araşdırmalar nəticəsində Şuşa rayonunun Daşaltı, Ağdam rayonunun Sırxavənd, Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndləri və digər ərazilərdə də kütləvi məzarlıqlar tapılıb.

Bu ilin iyun ayının əvvəlində isə Şuşa həbsxanasının ərazisindən Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan xeyli sayda insan meyitinin qalıqları ekshumasiya edilib. Həmin meyit qalıqları ilə bağlı məhkəmə-tibbi kriminalistik və məhkəmə molekulyar-genetik ekspertizaları təyin edilərək icraya yönəldilib və digər zəruri hərəkətlər yerinə yetirilib.

Ermənistanın müharibə cinayətlərinin izlərindən biri isə Ağdam rayonunun işğaldan azad edilmiş Sarıcalı kəndi ərazisində tapılıb. Avtomobil yolunun kənarında aşkarlanan kütləvi məzarlıqda azı 4 nəfərin qalıqları olduğu deyilir. Belə ki, 50 kvadratmetr ərazidə dərinləşdirmə işləri aparılaraq, 40-50 santimetr dərinlikdə 3 fərqli yerdə qalıqlar aşkar olunub.

AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşı, antropoloq Vüsal Həsənov deyib ki, bir nöqtədə ən azı 2, digər nöqtələrin hərəsində 1 nəfər olmaqla azı 4 nəfərin qalıqları müəyyənləşdirilib. Dəqiq say, travma və digər əlamətlər, basdırılmış şəxslərin cinsiyyəti ilə bağlı məlumatlar ekspertiza zamanı müəyyən olunacaq. O vurğulayıb ki, burada dəfn əlamətləri yoxdur. İnsanlar öldürüldükdən sonra müxtəlif vəziyyətdə bura atılıblar.

Qeyd edək ki, əsir və girovluqdan azad olunmuş və müharibənin şahidi olmuş şəxslərdən Dövlət Komissiyasına daxil olmuş çoxsaylı məlumatlara əsasən, həmin ərazidə hərbçilərlə yanaşı, çoxsaylı mülki vətəndaşlarımız da ermənilər tərəfindən qətlə yetirilib. Ərazidə ANAMA tərəfindən təmizləmə işləri aparılıb. Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun mütəxəssisləri tərəfindən qazıntı işləri görülüb və hazırda işlər davam etdirilir.

Ağdamdakı kütləvi məzarlıq Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərimizdə tapılan səkkizinci məzarlıqdır. Məlumatlara əsasən, üçtərəfli Bəyanat imzalandıqdan sonra aparılmış axtarış-qazıntı işləri zamanı 400-ə yaxın vətəndaşımıza aid meyit qalıqları aşkar edilib.

Bütün bunlar Ermənistanın insanlıq, müharibə cinayətlərini bir daha sübut edir. Uzun illər ərzində Hayastanın törətdiyi cinayətlər, terror əməlləri ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlara müraciət olunsa da, heç bir cavab verilməyib. Beləliklə, öz vəhşiliklərini, cinayət əməllərini gizlətməyə çalışan ermənilər müharibədə itkin düşmüş şəxslər barəsində də heç bir məlumat verməyiblər.

Torpaqlarımız işğaldan azad edildikdən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası aidiyyəti qurumlarla birgə itkin düşmüş vətəndaşlarımızın taleyinin müəyyən olunması istiqamətində axtarış və qazıntı işlərini davam etdirir.

Axtarışlar davam etdikcə, Ermənistanın müharibə cinayətlərinin daha neçə izlərinin şahidi oluruq. Beynəlxalq aləm nə qədər sussa da, ermənilərin qanunsuzluqlarına, müharibə cinayətlərinə gözübağlı baxsa da, bu, həqiqəti, tarixi dəyişmir. Qətlə yetirilmiş şəxslərin meyitlərinin atıldığı kütləvi məzarlıqlar tapıldıqca, hayların törətdiyi cinayət faktları aşkarlanır, beləliklə də erməni xisləti, vəhşiliyi bir daha ortaya çıxır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-21 iyun.- S.1; 6.